## Kazus 1

**Faktlar:**

Ərizəçi, Yunanıstanda yaşayan Fələstin vətəndaşıdır. Livanda yaşadığıqaçqın düşərgəsindən qaçdıqdan sonra o, Yunanıstanın ərazi sularına daxil olmuş və onun qayığı batdığı zaman su polisi tərəfindən həbs edilmişdir.

Samos polis orqanları onu həbs etmiş və 2007-ci il mayın 9-da prokuror ərizəçinin mənşə ölkəsinə qayıtması barədə qərar çıxarmışdır. Ərizəçinin sözlərinə görə, həbs etmə zamanı hərbi çəkmə geyinmiş polis əməkdaşı onu doqquz dəfə ayağı ilə qabırğalarına vurmuşdur. Ərizəçi həmçinin Samos saxlanma mərkəzindəki bərbad şəraitdən şikayət etmişdir: dustaqlar çirkli döşəmədə yeməkyeyirdi və əksər hallarda döşəmədə yatırdılar; dəhlizlər zibillə doluidi; qida kifayət olmayan miqdarda, antisanitariya şəraitindəhazırlanırdı; mərkəzdə bitlər və dəri xəstlikləri geniş yayılmışdı;pəncərələr taxta parçaları ilə bağlanmışdı; tualet duş ilə bir yerdəidi və orada isti su yox idi; gəzintilər üçün nəzərdə tutulmuş balacayerdə gəzmək imkanı yalnız mühafizəçilərin kefindən asılı idi;telefondan istifadə etmək mümkün deyildi; mərkəz həddən artıqdoldurulmuşdu (100 nəfər üçün nəzərdə tutulmuş mərkəzdə 140-190 nəfər saxlanılırdı).Bundan əlavə, həftə ərzində bir neçə saata saxlanma mərkəzinəgələn hüquqşünasın yalnız məhdud sayda dustaqlarla görüşmək imkanı olmuşdur və o, qısa məsləhətdən başqa hər hansı yardımgöstərə bilmirdi. Sosial işçiyə və hakimə gəldikdə isə, onlartərcümənin təmin edilməməsinə, mərkəzin həddən artıqdoldurulmuş olmasına və mərkəzdəki şəraitə görə dustaqlar iləünsiyyət qura bilmirdilər. Qeyri-hökumət təşkilatlarından birininsəyləri nəticəsində ərizəçi, güman ki, 2007-ci ilin iyul ayındaxəstəxanaya keçirilmişdir. QHT-nin köməyi olmasaydı bu, işçiheyətin çatışmazlığı səbəbindən qeyri-mümkün olardı.

Xəstəxanada tərtib edilmiş tibbi arayışda göstərilirdi ki, ərizəçi qanqusma, zəiflik, baş ağrısı və dəri problemlərindən əziyyət çəkirdi.

2007-ci il iyunun 12-də, iki uğursuz cəhddən sonra, ərizəçinin siyasi sığınacaq verilməsinə dair müraciəti qeydiyyata alınmışdır.Birinci müraciət onun həbsə ahndığı gün edilmişdir. İyulun 30-da ərizəçinin sığınacaq verilməsi ilə bağlı müraciəti üzrə yekun qərarqəbul edilənədək onun ölkədən çıxarılması barədə qərarın icrasınındayandırılmasına dair göstəriş verilmişdir. O, saxlanmasının qanunvericilikdə nəzərdə tutulmuş 3 aylıq müddəti bitdikdə 2007-ci il avqustun 6-da azadlığa buraxılmışdır. Ərizəçinin sığınacaq verilməsibarədə müraciəti 2008-ci ilin dekabr ayında o əsasda rədd edilmişdirki, o, öz ölkəsində dininə, milliyyətinə və ya siyasi baxışlarına görətəqibə məruz qalmaq riskinin mövcudluğunu sübut edə bilməmişdir.

**TƏRƏFLƏRİN ARQUMENTLƏRİ:**

***Hökumətin mövqeyi:***

***Ərizəçi:***

*Konvensiya ilə nəzərdə tutulan hansı hüquq pozulmuşdur?*

## Kazus 2

**Faktlar:**

Ərizəçi İsveçrədə yaşayan Türkiyə vətəndaşıdır. Qanunsuztəşkilatın üzvü olduğuna görə məhkum edilmiş ərizəçi 2000-ci ildə İstanbuldakı E tipli Ürmaniye həbsxanasında cəzasını çəkirdi. Odövrdə ərizəçi də daxil olmaqla çoxlu sayda məhbuslar F tipli həbsxanalara qarşı etiraz olaraq aclıq elan etmişlər. Etirazaksiyalarına son qoymaq məqsədi ilə təhlükəsizlik qüvvələri 2000-ci il dekabrın 19-da bir sıra həbsxanalarda əməliyyat keçirmiş,həmin əməliyyat zamanı çoxlu sayda məhbuslar və təhlükəsizlikqüvvələrinin əməkdaşları yaralanmış, 32 nəfər isə öldürülmüşdür.2000-ci il dekabrm 22-də ərizəçi F tipli Kocaeli Kandirahəbsxanasına keçirilmişdir. Həbsxanadakı həkimlər tərəfindənhəmin gün tərtib edilmiş tibbi rəydə ərizəçinin bədənində müxtəlifxəsarətlərin olması göstərilmiş, lakin ayaqlarında hər hansıxəsarətlərin olması qeyd edilməmişdir. 2001-ci il fevralın 23-dəərizəçi F tipli Tekirdağ həbsxanasına keçirilmişdir.

Ərizəçihəbsxanaya gətirildikdən sonra soyunndurulduğunu, üzərində şəxsi axtarışın keçirildiyini, döyüldüyünü, saç və bığının zorla qırxıldığını, habelə birnəfərlik kameraya salındığını və yüksək səslə musiqiyə qulaq asmağa məcbur edildiyini iddia etmişdir.

Ərizəçinin sözlərinə görə, o, gündəlik yoxlama zamanı ayağa, qalxıb öz adını ucadan deməkdən imtina etdiyinə görəhəbsxananın mühafizəçiləri tərəfindən pis rəftara, xüsusilə*falakaya* (ayaqlarının altına zərbələr) məruz qalmışdır. Həbsxanahəkimi 2001-ci il fevralın 24-də və martın 3-də ərizəçini müayinəyə bilərəkdən məruz qoymuşlar.

**TƏRƏFLƏRİN ARQUMENTLƏRİ:**
***Hökumətin mövqeyi:***
***Ərizəçi:***

*Konvensiya ilə nəzərdə tutulan hansı hüquq pozulmuşdur?*